UNEC AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

UNEC TƏDQİQAT MƏRKƏZLƏRİNİN İŞİNİN ƏLAQƏLƏNDİRİLMƏSİ VƏ TƏŞKİLİ ŞÖBƏSİ
UNEC

# YAŞIL DÜNYANIN «QARABAĞ MODELİ»

*ümumrespublika*

# MƏQALƏ MÜSABİQƏSİ - 2024

son gün 20 OKTYABR

+(994 12) 492-57-31

tedgigatmerkezleri@unec.edu.az

UNEC Tədqiqat Mərkəzlərinin İşinin Əlaqələndirilməsi və Təşkili şöbəsi
UNEC Qarabağ İqtisadi Araşdırmalar Mərkəzi

**Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2023-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında 2024-cü ilin «Yaşıl dünya naminə həmrəylik ili» elan edilməsini rəhbər tutaraq, UNEC Rektorunun 30 dekabr 2023-cü il tarixli 323/1/2023 saylı Əmri ilə 2024-cü ilin «Yaşıl UNEC» (Green UNEC) ili elan olunması ilə bağlı təsdiq olunmuş Tədbirlər Planının icrasını təmin etmək məqsədilə UNEC Qarabağ İqtisadi Araşdırmalar Mərkəzi tərəfindən**

# YAŞIL DÜNYANIN QARABAĞ MODELİ

*adlı ümumrespublika Elmi Məqalə Müsabiqəsinin keçirilməsinə dair*

# ELAN

UNEC Qarabağ İqtisadi Araşdırmalar Mərkəzi **"Yaşıl Dünyanın Qarabağ Modeli"** adlı ümumrespublika elmi məqalə müsabiqəsi elan edir.

**Müsabiqənin məqsədi** ölkənin ali təhsil və elmi-tədqiqat müəssisələrinin professor-müəllim heyətinin, doktorant, dissertant, magistr və tələbələrinin Qarabağın iqtisadiyyat quruculuğunda ekoloji problemlərin və yaşıl dünya konsepsiyasının mahiyyətinin öyrənilməsi, regionun təbii resurslarından qənaətlə istifadə edilməsi, yaşıl enerji infrastrukturunun yaradılması və qlobal ekoloji problemlərin həlli yolları üzrə tədqiqatların aparılmasının təşviq edilməsi və onların müsabiqə əsasında mükafatlandırılmasıdır.

**Müsabiqənin əsas istiqamətləri:**

- Qarabağda yaşıl iqtisadiyyat quruculuğunun strateji aspektləri.
- Qarabağın yaşıl enerji zonasına çevrilməsi prioritetləri.
- Qarabağın təbii ehtiyatlarından səmərəli və qənaət rejimində istifadə edilməsinin aktual problemləri.
- Qarabağın ekoloji-iqtisadi sisteminin formalaşdırılması və inkişaf etdirilməsi istiqamətləri.
- Azərbaycanın COP29 kontekstində qlobal ekoloji problemlərinin həllində rolunun artması məsələləri.

**Mükafatlandırma: 1)** professor-müəllim heyəti və **2)** doktorant, dissertant, magistr və tələbələr üçün ayrıca nəzərdə tutulur:

1. Mükafatın məbləği (professor-müəllim heyəti üçün): I yer - 500 AZN; II yer – 400 AZN; III yer – 300 AZN.

**2.** Mükafatın məbləği (doktorant, dissertant, magistr və tələbələr üçün): I yer - 400 AZN; II yer - 300 AZN; III yer - 200 AZN.

**3.** Hər iki heyət üzrə ilk 10-luğa düşən məqalələrə Sertifikatlar veriləcək.

**4.** Komissiya tərəfindən seçilən məqalələr toplu şəkildə elektron-kitab formatında hazırlanacaqdır.

**Məqalələrə qoyulan tələblər:**
Məqalə 6-8 səhifə həcmində (şrift: Times New Roman, şriftin ölçüsü: 12, sətirlərarası məsafə: 1.5 interval, sol sahə: 3 sm, yuxarı sahə: 2 sm, aşağı sahə: 2 sm, sağ sahə 1.5 sm) olmalıdır. Məqalədə müəllifin adı və soyadı, elmi dərəcəsi, professor-müəllim heyətinin çalışdığı universitet (və ya elmi-tədqiqat müəssisəsi), kafedra; doktorant, dissertant, magistr və tələbənin təhsil aldığı təhsil müəssisəsi, fakültənin adı və qrupun nömrəsi mütləq qeyd olunmalıdır. Eyni zamanda elektron poçt ünvanları və telefon nömrələri də qeyd edilməlidir. Məqalələrin orijinallığı plagiat sistemi vasitəsilə yoxlanılacaqdır. Məqalələr azərbaycan, türk, ingilis və rus dillərində təqdim edilə bilər. Müsabiqədə iştirak etmək istəyən şəxslər məqalələrini **garabagh.iam@unec.edu.az** elektron ünvanına göndərməlidirlər.

**Məqalələrin qiymətləndirilmə meyarları:**
- Adın məzmuna uyğunluğu;
- Aktuallıq;
- Elmi məzmun;
- Praktiklik;
- Əsaslandırma dərinliyi

**Məqalələrin son göndərilmə tarixi:** 20 oktyabr 2024-cü il

**Müsabiqənin nəticələri:** 2024-cü il noyabr ayın 1-də elan olunacaqdır.

**Mükafatlandırma tədbiri:** 04-06 noyabr 2024-cü il tarixində, “8 Noyabr – Zəfər Günü” ərəfəsində keçiriləcəkdir.

**Təşkilatçılar:** UNEC Tədqiqat Mərkəzlərinin İşinin Əlaqələndirlməsi və Təşkili şöbəsi və UNEC Qarabağ İqtisadi Araşdırmalar Mərkəzi

**Əlaqə telefonu:** (+994 12) 492-57-31 (UNEC Tədqiqat Mərkəzlərinin işinin əlaqələndirlməsi və təşkili şöbəsi)

**Koordinator:** (+994 55) 400-37-20 (UNEC Qarabağ İqtisadi Araşdırmalar Mərkəzi)